# II Şuşa Qlobal Media Forumu – yalanlara qarşı mübarizə əzmimiz

## Həsən bəy Zərdabi ənənələri və dezinformasiyalarla mübarizə platformamız

**İyulun 20-dən start götürmüş və dünən də davam etmiş II Şuşa Qlobal Media Forumunun mövzusu son dərəcə aktualdır - "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə".**



Belə bir mövzunun seçilməsi adi məsələ sayıla bilməz. Çünki həm bizim qarşılaşdığımız, həm də bütövlükdə, dünyanın üzləşdiyi reallıqlar var. Elə bir reallıqlar ki, onların ədalətsizlik payı bəşəri dəyər və prinsipləri təhdid təbiətinə malikdir. Yazımızda bununla bağlı beş məqama nəzər salacaq, eyni zamanda, digər əlaqəli məsələlərə də diqqət yetirəcəyik.

**Birinci məqam.** Bəli, yalan və dezinformasiyalar, ümumən dünyanı düşündürür. Deməli, mövzunun II Şuşa Qlobal Media Forumu müstəvisinə çıxması fundamental anlam daşıyır. Nəticə etibarilə Azərbaycan beynəlxalq ictimaiyyət üçün faydalı işə imza atmış olur. Bəs dünya yalanlar və dezinformasiyalar barədə nə düşünür? Daha doğrusu, onlara qarşı hansı tədbirləri görür? Bu mənada Qərb təcrübəsinə istinadən bir sıra faktları sadalamaq mümkündür. Məsələn, Almaniyada internet qanunu, sosial media ilə bağlı Şəbəkə Mühafizə Qanunu (NetzDG), Fransada İnformasiyanın Manipulyasiyası ilə Mübarizə Qanunu var. Habelə, Avropa İttifaqının Süni intellekt üzrə Uyğunlaşdırılmış (təklif) Qaydaları da dezinformasiyaya, manipulyasiyaya səbəb ola biləcək məzmunlara qarşı müqavimət formalaşdırmaqdadır. Bundan başqa, qardaş Türkiyədə sosial media platformalarındakı xəbər çirkliliyi və dezinformasiyalarla mübarizə baxımından qanunvericiliyin təkmilləşdirildiyini deyə bilərik.

**(ardı 8-ci səhifədə)**

# II Şuşa Qlobal Media Forumu – yalanlara qarşı mübarizə əzmimiz

**(əvvəli 1-ci səhifədə)**

**İkinci məqama** keçid alarkən belə bir sual ünvanlayaq: Qeyd etdiyimiz qanunvericilik tədbirləri mənfi təmayülləri nə dərəcədə əngəlləyir və ya əngəlləyə bilirmi? Nəzərə almalıyıq ki, texnoloji inkişaf siyasi, sosial, iqtisadi və digər məqsədlər naminə saxta bilgilər yayan ayrı-ayrı fərdlər və qruplar üçün münbit zəmin formalaşdırır. Hələ mövcud labirintin yönləndirici bilgilər təzahürü də var. Bəzən görürük ki, dezinformasiyaya əsaslanmış məzmun troll və bot (saxta) hesablarda, "Facebook" və "Twitter" kimi məşhur sosial media platformalarında yayılır. Bu zaman insanların müstəqil qərar qəbul etmə potensialına zərər gəlir, ictimai rəy şübhələrlə, bir növ, sınağa çəkilmiş olur. Nəticədə cəmiyyətlərdə mediaya inam da azalır ki, əslində, bizi daha çox düşündürən elə budur.

Bəli, belə nəticəyə gələ bilərik ki, 22 iyul Milli Mətbuat Gününə həsr olunmuş II Şuşa Qlobal Media Forumu Azərbaycanın dünyanı düşündürən mövzunu müzakirəyə çıxarması baxımından bəşəriyyətə töhfədir. Deməli, ölkəmizin düzənlədiyi mötəbər toplantı Həsən bəy Zərdabinin "Əkinçi"si ilə açıqlanmış prinsipləri beynəlxalq aləmə ixrac edir. Özü də söhbət səmərəli ixracdan gedir. Çünki yalanların ifşasına və dezinformasiyaya qarşı mübarizəyə həsr olunmuş forumun ayrı-ayrı panellərinə nəzər salanda əminliklə söyləyə bilərik ki, problemə fundamental yanaşma ortaya qoyulub. Onu da qəti şəkildə vurğulamaq olar ki, artıq Şuşada keçirilən forumlar dünya mediasını, həmçinin xarici aləmi narahat edən məsələlərin müzakirəyə çıxarıldığı geniş platformaya çevrilir. Belə bir platformanın mövcudluğu, eyni zamanda, Həsən bəyin ruhuna dərin ehtiramın, azad sözə dəyərin müstəsna nümunəsidir.

**Üçüncü məqam.** Yalanlar və dezinformasiyalar dünyanı cənginə almış böyük bəla statusuna necə sahibləndi?



Hesab edirik ki, suala cavab vermək üçün bir qədər keçmişə üz tutmaq lazımdır. Götürək, elə "ərəb baharı" adı ilə başlanmış inqilablar dövrünü. Məlum olduğu kimi, həm internetin, həm də sosial medianın gücünü dünya ilk dəfə məhz həmin dövrdə gördü. Ortada ilk baxışdan olduqca sadə mexanizm var idi: sosial mediada aktiv bir qrup şəxs Misirdə dövlət çevrilişi edir, Tunisdə aranı qatır, tezliklə inqilab dalğası Liviyanı cənginə alır. Başqa təfərrüatlar da var ki, üzərində dayanmırıq.

Təxminən, 10-12 il əvvəlin bu mənzərəsini müşahidə edərkən, elə təsəvvür yaranırdı ki, sanki internet və sosial şəbəkələr ayrıca fövqəltəbii seqmentdir, onun heç nəyə dəxli yoxdur, birbaşa xalqlar, daha dəqiq desək, narazı kütlənin özünütəsdiq məkanıdır. Lakin tezliklə bütün daşlar yerinə oturmağa başladı. Məlum oldu ki, proseslər zərgər dəqiqliyinədək hesablanıb. Bəs Misirdə Hüsnü Mübarəkin, Liviyada Müəmmar Qəzzafinin devrilməsi ilə vüsət götürmüş inqilab dalğasının ən böyük silahı nə oldu? Əlbəttə ki, yalanlar və dezinformasiyalar.

Heç də demək istəmirik ki, ərəb ölkələrindəki hakimiyyət dəyişiklikləri üçün daxili zəmin yox idi və hər şey birbaşa sosial şəbəkələr üzərində uyduruldu. Ancaq həmin ölkələrdəki ssenarilər mütərəqqi sonluq gətirmədi. El dilində deyildiyi kimi, dinsizin öhdəsindən imansız gəldi. Nəticə isə göz önündədir. Bu gün inqilab dalğası ilə üzləşmiş ölkələr səfalət içərisindədirlər, onların əhalisi yaşayış səviyyəsi baxımından inqilabdan əvvəlki dövrdə olduğundan qat-qat geridir. Deməli, yalan və dezinformasiyalarla idarə olunan hərəkatlar insanların rifahına xidmət etmədi və əslində, edə də bilməzdi. Amma bunu əvvəldən görən və duyan oldumu? Təəssüf ki, yox!

**Dördüncü məqam.** O da məlum oldu ki, doğuluşdan şikəstliyə düçar olmuş yalan mahiyyət toplumları şikəst qoymaq məqsədini daşıyır. Bu yerdə diqqəti öz reallıqlarımıza çəkməyi vacib sayırıq. Axı müstəqilliyin ilk günlərindən ölkəmizi zəif salmaq istəyənlər də bizə qarşı şər və böhtandan istifadə ediblər. Ona görə Prezident İlham Əliyev "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda II Şuşa Qlobal Media Forumunun açılışında bildirib ki, Azərbaycan uzun illər ərzində faktların manipulyasiyasının, yanlış narrativlərin qurbanı olub. Dövlətimizin başçısı mövcud xüsusda ayrı-ayrı detalları da açıqlayıb. Məsələn, erməni diasporunun ölkəmizə qarşı səfərbərliyi, ermənipərəst siyasətçilərin, media nümayəndələrinin hücumları, yanlışlıqlar yaymaları, respublikamızı reallıqdan çox uzaq bir şəkildə təqdim etmələri. Bütün bunları görə-görə gəlmişik.

Digər tərəfdən, Prezident İlham Əliyev Azərbaycana yönəlmiş dezinformasiya savaşının daha bir seqmentini də açıqlayır. Söhbət ölkəmizlə bağlı natamam, qeyri-dəqiq və manipulyasiya edilmiş hesabatlardan gedir ki, ayrı-ayrı xarici media orqanlarının qərəzli münasibəti qaldığı kimi, həmin hesabatlar da yenə yayılmaqdadır. Dövlətimizin başçısı bu hesabatların Qərbdən qaynaqlandığını vurğulayır və belə mənfi təmayüllərin mövcudluğuna görə təəccübləndiyimizi, məyus olduğumuzu bildirir.

Yeri gəlmişkən, ən böyük məyusluğu İkinci Qarabağ müharibəsinin ilk günlərində yaşadıq. Həmin vaxt dünyanın müxtəlif media orqanları, siyasi ekspertləri elə fon yaratdılar ki, sanki hərbi əməliyyatlara ilk start verən Ermənistan rəhbərliyi olmamışdı. Onlar apardığımız savaşı ədalətsiz, işğalçılıq məqsədi daşıyan avantürizm qismində göstərməyə baş vurdular. Bir sözlə, ortada dünya adına son dərəcə böyük rəzillik yaşandı.

Ancaq həmin vaxt Prezident İlham Əliyev neqativ meyillərə qarşı təkbaşına mübarizə apardı. Dövlətimizin başçısı dünyanın müxtəlif aparıcı media orqanlarına verdiyi otuzdan artıq müsahibədə reallıqların və əsl həqiqətlərin üzərində dayanmaqla, ölkəmizin informasiya cəbhəsində də üstünlük qazanmasını təmin etdi.

**Beşinci məqam.** Lakin xaricdəki ermənipərəst dairələr, ölkəmizin inkişafını gözü götürməyən qüvvələr Vətən müharibəsindən sonra da Azərbaycana qarşı dezinformasiyalarına ara vermədilər. Onlar Ermənistanın təxribatlarına cavablarımızı işğalçı niyyəti kimi təqdim etməyə girişdilər. Çalışdılar ki, ölkəmizin ərazisində separatçı rejim qalsın, ömrünü sonsuzadək sürdürsün. Məhz bu səbəbdən 2023-cü ilin sentyabrında reallaşdırdığımız lokal xarakterli antiterror tədbirlərini süngü ilə qarşıladılar. Çalışdılar ki, dünyada Qarabağ ermənilərinə beynəlxalq təminat məsələsi naminə müqavimət formalaşsın, beləliklə Azərbaycanın ərazi bütövlüyü və suverenliyi məntiqi heçə sayılsın.

Lakin niyyətlərinə nail ola bilmədilər və reallıqların üzünə düz baxmaq məcburiyyətində qaldılar. Prezident İlham Əliyev də 2-ci Şuşa Qlobal Media Forumunda mövcud məqama toxundu: "Vaxt keçdikcə Qərbdə siyasi dairələrdə reallıq daha çox üzə çıxır və Azərbaycana bərabər tərəfdaş kimi yanaşılır".

Dövlətimizin başçısı forumda dünya mediasının, informasiya işinə məsul qütblərin Azərbaycanda və regionda baş verən hadisələri obyektiv şəkildə işıqlandırmalarının vacibliyindən söz açdı. Heç şübhəsiz, bu, yalnız istək deyil. Nəzərə alaq ki, mövcud istiqamətdə çalışmaq şərtdir. Buna görə də Prezident İlham Əliyev ölkəmizin dezinformasiyalara və yalanlara qarşı gələcəkdə də biganə qalmayacağını vurğulayır. Hesab edirik ki, "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusundakı 2-ci Şuşa Qlobal Media Forumu həm də ümumən üzləşdiyimiz və dünyanın qarşılaşdığı ədalətsizliklərə biganə qalmamaq əzmimizin təntənəsidir.

***Ə.CAHANGİROĞLU***
***XQ***

Xalq qəzeti .- 2024.- 23 iyul (№ 153).- S.1;8.